2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 fevral 2020-ci il tarixli, 232 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 19 fevral 2020-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasında öz təşəbbüsü əsasında Respublikanın bütün ərazisi üzrə müşahidəçi kimi qeydiyyatdan keçmiş Cavadzadə Tural Yusif oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 fevral 2020-ci tarixli 232 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Araşdırma ilə əlaqədar şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. Komissiyanın iclasında iştirak etməyə dəvət edilmiş, ancaq gəlməmişdir.

T.Y.Cavadzadə şikayətini onunla əsaslandırmışdır ki, 21 saylı Nəsimi birinci seçki dairəsinin dairə seçki komissiyasına müraciət edərək səsvermə günü yuxarıda göstərilən seçki dairəsinin 9 saylı seçki məntəqəsində seçki qanunvericiliyinin tələblərinin pozulduğunu iddia edərək həmin seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsini xahiş etmişdir. Eyni zamanda bildirmişdir ki, dairə seçki komissiyasının sözügedən müraciətə baxılan iclasında onun iştirakı təmin olunmamış və 15 fevral 2020-ci il tarixli 22/70 saylı qərarı ilə əsassız olaraq şikayəti təmin edilməmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər tələb edilərək alınıb araşdırılmışdır.

Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, səsvermə günü şikayətçinin müşahidə apardığı 9 saylı seçki məntəqəsində müxtəlif siyasi partiyaları və öz təşəbbüsü ilə qeydə alınmış namizədləri təmsil edən 9 müşahidəçinin birgə tərtib etdikləri aktdan və məntəqə seçki komissiyası üzvlərinin, o cümlədən məşvərətçi səs hüquqlu komissiya üzvünün izahatlarından müəyyən edilir ki, şikayətçinin iddia etdiyi pozuntular baş verməmişdir.

Eyni zamanda dairə seçki komissiyasının qərarında göstərilir ki, seçki günü 9 saylı seçki məntəqəsində müşahidə aparmış müşahidəçilərdən qanun pozuntusu ilə bağlı hər hansı bir müraciət daxil olmamış, həmin gün seçki məntəqəsində olmuş beynəlxalq müşahidəçilərlə söhbət zamanı T.Y.Cavadzadə tərəfindən heç bir qanun pozuntusu olmaması barədə məlumat verilməsi halı digər müşahidəçilərin izahatlarında göstərilmişdir.

T.Y.Cavadzadənin müraciəti ilə bağlı səsvermə günü sosial şəbəkələrdə yayımlanmış görüntülərə baxış keçirilərək 9 saylı seçki məntəqəsi ilə bağlı hər hansı bir paylaşmanın olmadığı müəyyən edilmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, dairə seçki komissiyası 9 saylı seçki məntəqəsində müşahidəçi olmuş T.Y.Cavadzadənin müraciətini obyektiv və hərtərəfli araşdıraraq təmin edilməməsi barədə düzgün nəticəyə gəlmişdir.

T.Y.Cavadzadə tərəfindən dairə seçki komissiyasının qərarından verilmiş şikayətin təmin edilməsi və həmin qərarın ləğv edilməsi üçün hüquqi əsaslar yaranmamışdır. Göstərilənlərə əsasən müraciət əsassız olduğundan təmin edilməməlidir.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə  g ə l d i m:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə Mərkəzi Seçki Komissiyasında öz təşəbbüsü əsasında Respublikanın bütün ərazisi üzrə müşahidəçi kimi qeydiyyatdan keçmiş Cavadzadə Tural Yusif oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 fevral 2020-ci il tarixli 232 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, 21 saylı Nəsimi birinci seçki dairəsinin dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 22/70 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov